Doğma yurda qayıdırıq

# "Xoşbəxtəm ki, Ağalı kənd orta məktəbinin müəllimiyəm"

**Atası ona həmişə keçdiyi döyüş yolundan, Qarabağın gözəl təbiətindən, başıqarlı şiş qayalarından, şırıl-şırıl axan buz bulaqlarından, bir də ki ermənilərin Qarabağda törətdikləri vəhşiliklərdən danışardı. Şəmsiyyə də atasının danışdığı qorxulu nağıla bənzər bu əhvalatları maraqla dinləyərdi. Böyüdükcə bu balaca qızcığazın arzuları da qanadlanardı... Ürəyindən müəllim olmaq, Qarabağ torpaqlarında körpə fidanlara dərs demək keçərdi...**

Şəmsiyyə Vüqar qızı Şəmsəddinova 1999-cu ildə Yevlax rayonunun Ərəş kəndində anadan olub. Kəndlərində orta məktəbi bitirdikdən sonra Mingəçevir Dövlət Universitetinə qəbul olub. 2016-cı və 2020-ci illərdə Mingəçevir Dövlət Universitetində ibtidai sinif müəllimi ixtisasına yiyələnib. Şəmsiyyə xanım deyir ki, "müəllimliyə hazırlaşanda artıq arzum uzaq xəyaldan çox yaxın hədəfə çevrilmişdi. Vətən müharibəsi başlayanda IV kursda təhsil alırdım. Qələbəmiz arzumun reallaşacağına zəmanət verirdi. Müəllimlərin işə qəbulu imtahanlarına məhz Qarabağdakı məktəblərdə müəllimlik həvəsi ilə hazırlaşırdım".

Yevlaxda doğulub Mingəçevirdə təhsil alan Şəmsiyyə Şəmsəddinova indi Qarabağda müəllimdir. Ağalıya - doğma yurda qayıtmış uşaqlara, "Ana", "Vətən" sözlərinin müqəddəsliyini öyrədir. "Əslində, ailəm onların yaxınlığında işləməyimi istəyirdi. Amma mən qərarımda qəti idim. Uşaqlıq arzularımı gerçəkləşdirmək haqda ciddi düşünürdüm. Arzum Qarabağ idi! Ağalı kəndinə vakansiya olduğunu görəndə çox sevindim. Heç kimə heç nə demədən qeydiyyatdan keçdim. Çox xoşbəxtəm ki, bu gün Zəngilan rayon Ağalı kənd tam orta məktəbinin müəllimiyəm. Bununla qürur duyuram. Çünki artıq arzum reallaşıb.



Hələ universitetdə oxuyarkən məndə inam var idi ki, bir gün gələcək, bu torpaqlarda müəllim kimi fəaliyyət göstərəcəyəm. O gün gəldi. Fəxr edirəm ki, şəhidlərimizin qan töküb, can verib aldıqları bu müqəddəs torpaqda dərs deyən ilk müəllimlərdənəm. Bu da mənim müəllim kimi şərəfli fəaliyyətimin başlanğıcıdır..."

Şəmsiyyə Şəmsəddinova bizimlə söhbət zamanı bildirdi ki, Ağalı müəllimləri ilk dərs ilində and içiblər ki, Qarabağda açılan ilk məktəb elmi nailiyyətləri ilə də respublikada birinci olsun.

- Özümüzə söz vermişik ki, Zəngilan rayon Ağalı kənd məktəbi ölkəmizin ən yaxşı təhsil ocaqlarından olacaq. Qəhrəmanlarımızı döyüşdən-döyüşə, qələbədən-qələbəyə aparan vətən sevgisi bizi də olimpiadalardan bilik yarışlarına, idman uğurlarından elmi nailiyyətlərə aparacaq. Bizdəki bu Vətən sevgisindən düşmən qorxsun və bilsin ki, bütün həmlələri, indi olduğu kimi, həmişə boşa çıxacaq.

Ağalı kənd tam orta məktəbində işləyən 12 müəllimdən biridir Şəmsiyyə Şəmsəddinova. Burada, Ağalıda çalışan gənc müəllimləri dinlədikcə adam işıqlı, vətənsevər vətəndaşları ilə qürur duyur. Məktəbdə yaradılan şəraiti görüb dövlətinin gücü, qüdrəti, gənc nəslə olan münasibəti ilə fəxr edirsən. Əminliklə düşünürsən ki, belə müəllimləri, bu cür vətənpərvər vətəndaşları olan dövlət heç vaxt yenilməz.

Bu məktəbdə çalışan müəllimlərin hər birinin həyatı vətən sevgisi haqqında yazılmış gözəl bir hekayəyə bənzəyir. Biz bu gün sizinlə birlikdə Ağalı kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Şəmsiyyə Şəmsəddinovanın hekayəsini oxuduq...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-27 oktyabr.- S.10.